Əsrin ən böyük faciələrindən biri olan Xocalı soyqırımından iyirmi il keçir.

Öz miqyasına görə dünya və Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olan Xocalı soyqırımı haqqında gənc nəslə geniş məlumat vermək, torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olmuş insanların xatirəsini ehtiramla yad etmək, məktəblilərdə vətənə sədaqət və məhəbbət hissini gücləndirmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Ümumtəhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında "Uşaqlar və müharibə" mövzusunda respublika rəsm müsabiqəsi keçirilsin.

2. Müsabiqənin əsasnaməsi və təşkilat komitəsinin tərkibi təsdiq olunsun (əlavə olunur).

3. Naxçıvan MR təhsil naziri, şəhər, rayon təhsil şöbələrinin, idarələrinin müdirləri müsabiqənin yerlərdə təşkili ilə əlaqədar lazımi işlər görsünlər.

4. Tərbiyə və məktəbdənkənar müəssisələr şöbəsi (A.İbrahimov) müsabiqənin yüksək səviyyədə keçirilməsini təmin etsin.

5. İqtisadiyyat şöbəsi (Ş.Əliyev) təsdiq olunmuş əsasnaməyə uyğun olaraq müsabiqənin yekun tədbirinin keçirilməsi, qaliblərin mükafatlandırılması ilə əlaqədar vəsaitin ayrılması ilə bağlı müvafiq tədbirlərin görülməsini təmin etsin.

6. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və əsasnamə ilə birlikdə nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

7. Ümumi şöbə (X.Fərəcov) əmr və əsasnamənin çoxaldılıb yerlərə göndərilməsini təmin etsin.

8. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***Misir MƏRDANOV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***19 yanvar 2012-ci il***

***№ 65***

---

**Əlavə:**

Ümumtəhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında "Uşaqlar və müharibə" mövzusunda keçirilən Respublika rəsm müsabiqəsinin Əsasnaməsi

Təşkilat komitəsi